# MÜQAVİLƏ №

**Bakı şəhəri** **“ ____” _________-cı il**

Bu müqavilə “Telekommunikasiya haqqında” Azərbaycan Respublikası qanununun 12-ci maddəsinə müvafiq Azərbaycan Respublikasının ümumistifadəli Telekommunukasiya şəbəkəsində fəaliyyət göstərən Telekommunikasiya operatorları arasında arabağlantı müqavilələrinin əsas prinsipləri və şərtlərinə uyğun olaraq Azərbaycan Respublikasının Qanunlarına və özünün nizamnaməsinə əsasən fəaliyyət göstərən, Azərbaycan Respublikasının qanunlarına və özünün nizamnaməsinə əsasən fəaliyyət göstərən, ________ şəxsində təmsil olunan __________ arasında (bundan sonra təklikdə “Tərəf” bir yerdə “Tərəflər” adlandırılacaqdır) bağlanılır.

## MADDƏ 1. MÜQAVİLƏNİN PREDMETİ

1.1. Bu müqavilə _________ şəbəkəsindən şəbəkələrinə tranzit olaraq digər şəbəkələrə qarşılıqlı trafik mübadiləsi ilə əlaqədar qarşılıqlı arabağlantının texniki, iqtisadi, kommersiya və hüquqi münasibətlərini, əsas prinsiplərini və şərtlərini tənzimləyir.

## MADDƏ 2. ŞƏBƏKƏ MƏLUMATLARI

2.1. Hər bir tərəf bu Müqavilə qüvvəyə mindiyi tarixdən etibarən 15 iş günündən gec olmayaraq digər tərəfi mövcud şəbəkə, işarələmə, sinxronlaşdırma planı, nomrə diapazonlarına dair məlumatlarla təmin edir.

2.2 Tərəflər öz şəbəkələri arasında arabağlantı təşkil etməklə qarşılıqlı olaraq aşağıdakı trafik mübadiləsini həyata keçirir:

- Respublika daxilində bir tərəfin şəbəkəsindən başlayaraq (çıxan), digər tərəfin şəbəkəsində sona çatan trafik,
- ________________ ________________ ________ beynəlxalq giriş və çıxış trafiki,
- Respublika daxilində bir tərəfin şəbəkəsindən başlayaraq, digər tərəfin şəbəkəsi üzərindən tranzit keçməklə üçüncü tərəfin (operatorun) şəbəkəsinə daxil olan trafik.

2.3. Hər bir tərəf digər tərəfə öz nömrələmə strukturu və planlaşdırılmış dəyişiklər barədə müfəssəl məlumatı iki aydan gec olmayaraq yazılı şəkildə bildirir.

## MADDƏ 3. ARABAĞLANTI ÜÇÜN TEXNİKİ ŞƏRTLƏR

3.1. Şəbəkələrarası qarşılıqlı bağlantı BTİ-nin (İTU) G703 və G704 tövsiyyələrinə uyğun olaraq 2 mbt/san (E1 İnterfeysi ilə) səviyyəsində qoşulur.

3.2. __________nin kommutasiya (transmissiya) avadanlığı ________ sinxronlaşdırma mənbəyindən (clock) qidalandırılmalıdır (1-ci mənbə).

3.3. Şəbəkələrarası trafikin (çağırışların) sonlandırılması (Switchover) 99.5%-dən çox olmalıdır.

3.4. Tərəflər öz kommutasiya avadanlıqlarını mövcud yükə uyğun olaraq C 7 siqnallaşması ilə (gələcəkdə daha müasir) qoşular və bu qoşulma üçün hər bir tərəf öz şəbəkəsinə lazım olan avadanlıqları alıb quraşdırır.

3.5 Arabağlantı interfeysinin aydın təsviri, interfeyslərin fəaliyyəti üzrə testlər və şəbəkələrin qarşılıqlı fəaliyyəti.

3.6 Əsas və əlavə arabağlantı xidmətləri üzrə şərtlər, onların arasında kommutasiya olunan texniki vasitələrə, yerli şəbəkəyə və arabağlantı xətlərinə giriş.

3.7. Arabağlantı nöqtələrinin təyini və arabağlantının texnoloji tətbiqinin müəyyən olunması.

3.8 Göstərilən xidmətin keyfiyyəti, o cümlədən təhlükəsizlik, siqnallaşma, sinxronlaşdırma.

3.9 Trafikin marşrutlandırılması üzrə tədbirlər.

3.10 Avadanlığın yerləşdirilməsi üzrə şərtlər.

## MADDƏ 4. YÖNLƏNDİRMƏ PRİNSİPLƏRİ

4.1 Tərəflər arasındakı birbaşa istiqamətlər üzrə boşdayanmanın qarşısını almaq üçün hər bir tərəf texniki imkan daxilində alternativ nəqletmə marşrutları müəyyən edir.

4.2. Tərəflər arasındakı birbaşa kanallar texniki imkan daxilində mövcud yüklənməyə uyğun tənzimlənir.

4.3. Əgər Tərəflərdən biri öz trafikini digər Tərəfin şəbəkəsinə birdən artıq stansiyası üzərindən nəql etmək istəyərsə, onda müvafiq əlaqə xətti həmin tərəfin istifadəsində olacaq və onun həyata keçirilməsi və baxımı ilə əlaqədar xərclər əsas etibarilə həmin Tərəfin üzərinə düşür.

4.4 Tərəflərdən biri digər tərəfin razılığı olmadan bu Müqavilə çərçivəsindən kənar üçüncü tərəfin yükünü digər tərəfin şəbəkəsinə ötürə bilməz.

4.5 Abunəçi və ya istifadəçinin digər operatorun abunəçisi və ya istifadəçisi ilə 3.7 arabağlantı birləşməsi hüquq bərabərliyi əsasında həyata keçirilir.

4.6 Zənglərin, aidiyyəti şəbəkə vasitəsilə və şəbəkədən keçməklə, zəng edən və zəngi qəbul edən tərəflərə obyektiv qaydada və fasiləsiz ötürülməsi təmin olunur.

4.7 Tərəflər qarşılıqlı razılıq əsasında birbaşa və tranzit qaydada arabağlantı xidməti ilə təmin edir.

4.8 Arabağlantı şəbəkənin istənilən mümkün ən səmərəli texniki nöqtəsində həyaтa keçirilir.

4.9 Arabağlantı qəbul olunmuş texniki standartlara uyğun olaraq öhdəlik və hüquqların pozulmaması əsasında təmin olunur.

## MADDƏ 5. YÜKAXINI PROQNOZLARI

5.1. Tərəflər beynəlxalq, milli nəqletmə və xidmətlər də daxil olmaqla Şəbəkələri arasında mübadilə ediləcək trafik proqnozlarını hazırlayırlar.

5.2. Yükaxını proqnozları iki il müddətini əhatə etməklə hazırlanır. Növbəti mərhələlərdə yükaxını proqnozu 6 aylıq intervallarla hazırlanır və 15 gün əvvəlcədən Tərəflərin iştirakı ilə keçirilən Texniki baxış toplantısına təqdim edilir.

5.3. Yükaxını proqnozları ən böyük yüklənmə saatları (ƏBYS) və bütün gün üçün (24 saatlıq) "Erlanq" hesabı ilə aparılır.

5.4. Tərəflər onlar arasında mövcud olan qarşılıqlı trafik mübadiləsinin (şəhərlərarası, beynəlxalq və xidmətlər də daxil olmaqla giriş-çıxış trafiki nəzərdə tutulur) kəskin şəkildə artıb-azalmasına yol verməyəcək. Bu cür halların yaranmasına yol verən tərəf digər tərəfə 7 gün müddətində bu halların səbəbləri haqda yazılı acıqlama verəcək və bu hallar planlı şəkildə təşkil edilərsə həmin tərəf digər tərəfin qarşısında məsuliyyət daşıyacaqdır. Bu halların aradan qaldırılması üçün təcili tədbirlər görəcəkdir.

5.5 Öz şəbəkəsində aparacağı rekonstruksiya və genişləndirmə işləri barədə digər operatorlara məlumat verir.

5.6 Hər ilin sonunda növbəti il üçün gözlənilən trafik həcmi barədə qarşı tərəfin məlumatlandırılması təmin olunur.

5.7 Şəbəkələrə ötürülən trafik barədə məlumatlar ən azı bir il müddətində saxlanılır.

## MADDƏ 6. NÖMRƏLƏMƏ VƏ SİQNALLAŞMA

6.1. Tərəflər mövcud qanunvericiliyə uyğun olaraq RİTN tərəfindən onlara ayrılmış (o cümlədən __________ ayrılmış _________ indeksləri) nömrə diapazonlarından istifadə etməklə şəbəkə nömrələri haqında məlumatların qarşılıqlı ötürülməsini təmin edirlər.

6.2. Tərəflər nömrələmə planında aparılacaq dəyişikliklər barədə 15 gün əvvəlcədən bir-birini məlumatlandırır.
6.3. Tərəflər mövcud qanunvericiliyə uyğun olaraq RİTN-nin tərəfindən onlara ayrılmış siqnallaşma noqtə kodlarından istifadə edəcəkdir.
6.4. Tərəflər öz işlərini Beynəlxalq Standart Elektrik və Fiziki İnterfeys Spesifikasiyalarının sinxronlaşdırma müddüalarına uyğun şəkildə quracaqdır.
6.5. Tərəflər arasındakı C7 siqnallaşdırma protokolu BTİ-nin Q.784 tövsiyyələrinə uyğun olaraq qarşılıqlı test edilərək dövrəyə verilir.

## MADDƏ 7. KEYFİYYƏT STANDARTLARI

7.1. Müxtəlif istiqamətlərdə ƏBYS-da yükün həcmi (Erlanq), rabitədə kəsintilər, çağırış sayı, cavablanma nisbəti və digər keyfiyyət göstəriciləri barədə məlumatlar iki ayda bir dəfə qarşılıqlı mübadilə edilə bilər.
7.2. Tərəflər arabağlantı kanallarında ƏBYS-larında daşma səviyyəsinin 2%-dən artıq olmasına yol vermirlər.
7.3. Arabağlantı kanallarında ƏBYS-larında trafik daşmaları 2%-i keçərsə, trafikində daşma olan tərəfin yazılı tələbi ilə, hər iki tərəfin öz məsrəflərini özü ödəməsi qaydasında kanal əlavəsi edilə bilər.
7.4. Əgər tərəflərdən hər hansı biri öz Şəbəkəsindən digər Tərəfin şəbəkəsinə birbaşa təsir edə biləcək nasazlıq olduğunu müəyyən edərsə, birinci tərəf dərhal yaranmış vəziyyəti aradan qaldırmaq üçün görəcəyi müvafiq tədbirlər barədə digər tərəfə məlumat verir.
7.5. Arabağlantı mövcud qanunvericiliyə uyğun olmalı, operatorlar arasında dayanıqlı və keyfiyyətli bağlantını təmin etməlidir.
7.6. Ümumistifadəli telekommunikasiya şəbəkəsi operatorları arabağlantının təxirə salınmadan və effektiv tətbiqinə görə məsuliyyət daşıyırlar.
7.7. Arabağlantı hər iki operatorun müştərilərinin telekommunikasiya xidməti ilə təmin olunmaları üçün effektiv və fasiləsiz həyata keçirilir.
7.8. Arabağlantı üçün istifadə olunan avadanlıqlar operatorların telekommunikasiya şəbəkələrinin effektiv bağlantısını və qarşılıqlı fəaliyyətini təmin edir.

## MADDƏ 8. TEXNİKİ BAXIŞ VƏ MALİYYƏ MƏSƏLƏLƏRİ ÜZRƏ TOPLANTILAR

8.1. Texniki baxış və qarşılıqlı hesblaşmalar üzrə toplantılar hər hansı bir tərəfin yazılı tələbi ilə razılaşdırılmış vaxtda keçirilə bilər.
8.2. Texniki baxış toplantısında yük axını proqnozları, tutum profilləri, nömrələmə və siqnallaşma planının modifikasiyaları, qarşılıqlı hesablaşmalar toplantısında isə tərəflər arasında hesablaşma vəziyyəti müzakirə edilə bilər.

## MADDƏ 9. PLANLAŞDIRILMIŞ İSTİSMAR İŞLƏRİ

9.1. Hər bir tərəf digər Tərəfin Şəbəkəsinə təsir edə biləcək planlaşdırılmış hər-hansı bir təmir istismar işləri barədə 3 iş günündən az olmayan müddətə məlumat verməlidir. Bu zaman həmin Tərəf imkan daxilində rabitənin alternativliyini tımin edəcəkdir.

## MADDƏ 10. TƏRƏFLƏRİN ÖHDƏLİKLƏRİ

**10.1 _____________-nin öhdəlikləri:**

10.1.1. Arabağlantının təmin edilməsi üçün özünə aid stansiyalarını texniki normalara uyğun avadanlıq və cihazlarla təmin edir.

10.1.2. Öz şəbəkəsindən qarşı tərəfin şəbəkəsinə ötürülən və qarşı tərəfin şəbəkəsindən qəbul edilən trafik mübadiləsini əlaqədar stansiyası vasitəsi ilə istiqamətləndirmə şərtlərinə uyğun olaraq təmin edir.
10.1.3_________ avadanlıqları vasitəsi ilə digər rabitə operatorlarının şəbəkəsinə, həmçinin Beynəlxalq giriş və çıxış trafikinin ötürülməsini bu müqavilə şərtlərinə uyğun təmin edir.
10.1.4.__________________ ______ şəbəkəsi ilə digər rabitə operatorları, həmçinin Beynəlxalq rabitə şəbəkələri arasında mübadilə olunan trafikin uçotunu təşkil edir.
10.1.5.Mübadilə olunan trafikin son məntəqəyə keyfiyyətlə çatdırılmasını təmin edir.

**10.2. _____________ -ın öhdəlikləri:**

10.2.1.Arabağlantının təmin edilməsi üçün özünə aid stansiyanın texniki normalarına uyğun avadanlıq və cihazla təmin edir.
10.2.2.Öz stansiyası ilə _________ arasında E1 interfeysi ilə transmissiya xəttini təmin edir.
10.2.3.Öz şəbəkəsindən qarşı tərəfin şəbəkəsinə ötürülən və qarşı tərəfin şəbəkəsindən qəbul edilən trafik mübadiləsini əlaqədar stansiyaları vasitəsi ilə istiqamətləndirmə şərtlərinə uyğun olaraq təmin edir.
10.2.4____________ şəbəkəsindən digər rabitə operatorlarının şəbəkəsinə, həmçinin Beynəlxalq giriş və çıxış trafikinin mübadiləsini təmin edir.
10.2.5___________ şəbəkəsindən beynəlxalq və Ş/A istiqamətlərə çıxış zənglərinə görə istifadəçilərlə hesablaşma Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyənləşdirilən beynəlxalq telefon danışıq tariflərinə uyğun aparılır.
10.2.6.Mübadilə olunan trafikin son məntəqəyə keyfiyyətlə çatdırılmasını təmin edir.

## MADDƏ 11. HESABLAŞMA MƏZƏNNƏLƏRİ VƏ QAYDALARI

11.1 Şəbəkələrarası qoşulma haqları obyektivlik, qarşılıqlı şəffaflıq, əməkdaşlıq, hüquqların pozulmaması prinsiplərinə cavab verir və mövcud qanunvericiliyə uyğun tənzimlənir.
11.2 Şəbəkələr arasında (sabit-mobil, mobil-sabit) zənglərin sonlandırma qiymətləri ____ manat (AZN)/dəqiqə müəyyən olunur (sabit şəbəkə dedikdə BTRİB şəbəkələri nəzərdə tutulur).
11.3 Şəhərlərarası şəbəkəyə çıxış və giriş trafiki _________ üzərindən təşkil edilir. ______ -in şəbəkəsindən şəhərlərarası çıxış zənglərinin hər dəqiqəsinə görə ______-yə ____ manat (AZN), giriş zənglərinin hər dəqiqəsinə görə isə ___________ _____-ə ____ manat (AZN) ödəyir.
11.4 Beynəlxalq şəbəkələrə çıxış və giriş zəngləri "Aztelekom" İB üzərindən təşkil edilir. Beynəlxalq çıxış zənglərinə görə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyənləşdirilən beynəlxalq telefon danışıq tariflərinin _____-i ____________, ____-i isə ______-ə qalmaqla hesablaşma nisbətləri müəyyən edilir.
11.5 ___________-nin şəbəkəsinə beynəlxalq giriş trafikinin hər dəqiqəsinə görə "Aztelekom" İB tərəfindən ödəniləcək hesablaşma tarifinin məbləği ______ AZN müəyyən edilir. Beynəlxalq giriş trafiki üzrə qiymətlər əhəmiyyətli dərəcədə dəyişdirildikdə, tərəflər təqdim edilən müvafiq rəsmi sübutlar və sənədləri nəzərə alaraq qarşılıqlı rəsmi razılığa əsasən beynəlxalq giriş trafiki üzrə qiymətləri dəyişdirmək hüququna malikdirlər.
11.6 Şəhərlərarası, beynəlxalq və digər şəbəkələrə olan hər sifarişli danışıq üzrə xidmət haqqı ______ manat (AZN)/zəng müəyyən olunur və _______ hər sifarişli danışıq üzrə xidmət haqqından _______ manat (AZN)/zəng _________ ödəyir.
11.7 BTRİB şəbəkəsi istisna olmaqla "Aztelekom" İB üzərindən üçüncü tərəfin şəbəkəsinə ötürülən tranzit trafikin haqqı əlavə olaraq ______ manat (AZN)/dəqiqə müəyyən olunur və ______ tərəfindən "Aztelekom" İB-yə ödənilir.
~~11.7~~11.8 ________ şəbəkəsi üzərindən tranzit keçməklə üçüncü tərəfin şəbəkəsinə ötürülən trafikə görə _______ tərəfindən son operatorun _____ AZN/dəqiqə sonlandırma haqqı ___________ və ya üçüncü tərəflə bağlanmış arabağlantı müqaviləsi əsasında son operatora (üçüncü tərəfə) ödənilir .

~~11.8~~11.9 İxtisaslaşdırılmış təcili yardım xidmətlərinin təşkili və göstərilməsi üçün operatorlar yerlərdə öz şəbəkələrini təşkil edirlər.

~~11.9~~11.10 Tərəflər, onların aidiyyəti şəbəkələrinin çıxış-giriş zənglərinin qeydiyyatını aparırlar, trafik həcmi saniyə ilə hesablanır, aylıq trafik hesablarında dəqiqə ilə göstərilir və faktiki müddətı əks etdirir.

~~11.10~~11.11 Hər bir tərəf öz abunəçi və istifadəçiləri tərəfindən edilmiş bütün çıxış və giriş zəngləri üzrə məlumatları toplayır və bu məlumatlara əsasən hesablaşma aparılır.

~~11.11~~11.12 Tərəflər hər hesabat ayı üçün növbəti ayın 15-dən gec olmayaraq hesablaşmaların qarşılıqlı üzləşdirilməsini aparır və nəticəsi barədə üzləşdirmə aktı tərtib edirlər.

~~11.12~~11.13 Qarşılıqlı üzləşmə zamanı göstərilən müddət ərzində razılıq əldə edilmədikdə, hər iki tərəf qarşı tərəfin tələb etdiyi hesablaşma məlumatları ilə əlaqədar 3 (üç) iş günü ərzində RİTN-ə müraciət edə bilər.

~~11.13~~11.14 Qarşılıqlı hesablaşmaların üzləşdirilməsinə dair tərtib edilmiş akt tərəflərin imzaları və möhürləri ilə təsdiq olunaraq, tərəflərin hər birində bir nüsxə saxlanılır.

~~11.14~~11.15 Qarşılıqlı hesablaşmaların üzləşdirilməsi zamanı razılaşdırılmış və üzləşdirmə aktında göstərilən məbləğə ƏDV tətbiq edilməklə hesab-faktura və vergi hesab-fakturası yazılır və ödəniş üçün digər tərəfə təqdim olunur.

~~11.15~~11.16 Hesab-fakturada göstərilən borcların tam ödənilməsi cari ayın sonunadək təmin edilir.

11.17. Borcu olan Tərəf nəzərdə tutulmuş müddət ərzində göstərilmiş xidmətin haqqını ödəmədikdə ondan borcun ____%-i məbləğində dəbbə pulu hesablanaraq tutulur.

11.18. Bütün hallarda dəbbə pulunun ümumi məbləği borc məbləğinin ___%-indən çox ola bilməz və dəbbə pulunun ödənilməsi Tərəfləri əsas borcun ödənilməsindən azad etmir.

## MADDƏ 12. ƏLAVƏ ŞƏRTLƏR

12.1. Tarif şurası təsdiq etdiyi tariflərdə dəyişikliklər aparıldıqda hesablaşmalar həmin dəyişikliklərin qüvvəyə mindiyi tarixdən yeni tariflərlə və pay bölgüsü nisbətləri ilə aparılır.

12.2. Müqavilə şərtləri və öhdəliklərinin 3-cü tərəfə həvalə edilməsi ancaq tərəflərin razılığı ilə mümkündür.

12.3 Tərəflərin rəsmi razılığı olmadan, hər hansı üçüncü operator tərəfindən onun stansiya və trafikinin istifadəsinə yol verilmir. Belə hallar müəyyən edilərsə qarşı tərəf vurulmuş ziyan qədər maddi məsuliyyət daşıyır.

12.4_________ şəbəkəsi ilə bütün rabitə operatorları, həmçinin beynəlxalq istiqamətlərdə mübadilə olunan trafikin qeydiyyatı və üçotu RİTN-nin Məlumat Hesablama Mərkəzi tərəfindən müqavilə əsasında təşkil edilir.

## MADDƏ 13. FORS MAJOR

13.1 “Fors-Major”a _____________ və _________ tərəfindən nəzarət edilməyən, onların səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr aiddir. Bunlara müharibələr və ya inqilablar, daşqınlar, epidemiyalar, epizootiyalar, karantinlər, embarqolar, dövlət və hökümət qərarları və bu kimi digər hallarda aid edilir.

## MADDƏ 14. MÜQAVİLƏNİN MÜDDƏTİ

14.1. Müqavilə imzalandığı tarixdən qüvvəyə minir.

14.2. Müqavilənin ilkin müddəti ______ müəyyən edilir.

14.3 Müqavilənin müddətinin artırılması üçün Tərəflərdən biri müqavilə müddətinin bitməsinə 2 ay qalmış yazılı bildiriş göndərməlidir.

14.4. Müqaviləyə əlavə və dəyişikliklər qarşılıqlı razılıq əsasında tərəflərin səlahiyyətli nümayəndələri tərəfindən edilir və müqavilənin ayrılmaz hissəsi hesab edilir.

14.5. Müqavilə 2 nüsxədən ibarətdir, “Aztelekom” İB və ______ -in hər birində 1 nüsxə saxlanılır.

## MADDƏ 15. MÜBAHİSƏLƏRİN HƏLLİ

15.1. Tərəflər arasında yarana bilən mübahisələri qarşılıqlı razılıq əsasında həll etməyə çalışır. Qarşılıqlı razılıq əldə edilmədikdə mübahisələr Azərbaycan Respublikasının məhkəmələrində həll edilir. Bu müqavilə bütün hallarda Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

## MADDƏ 16. MÜQAVİLƏYƏ XİTAM VERİLMƏSİ

16.1. Müqaviləyə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir.

- tərəflərdən hər biri digər tərəfi 2 (iki) ay əvvəlcədən xəbərdarlıq etməklə müqaviləyə xitam verə bilər,
- tərəflərdən biri müqavilə şərtlərini pozduqda,
- fors- major vəziyyəti halları 6 aydan çox bir müddət ərzində davam etdikdə,
- tərəflər biri iflas olduqda və ya ləğv edildikdə,
- məhkəmənin qətnaməsi ilə.

## MADDƏ 17. TƏRƏFLƏRİN HÜQUQİ ÜNVANLARI VƏ BANK REKVİZİTLƏRİ